Azərbaycan.-2025.- 31 iyul (№ 157).- S.4.




# İlham Əliyevin qətiyyəti sayəsində

## Azərbaycanın enerji siyasəti daha geniş coğrafiyanı əhatə edir

**Məlum olduğu kimi, Ukraynanın "Naftogaz" Şirkətlər Qrupu SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) qrupuna daxil olan "SOCAR Energy Ukraine" şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında ilk müqaviləni imzalayıb. Həmin müqaviləyə əsasən, bu günlərdə Ukrayna ilk dəfə olaraq Azərbaycan qazını almağa başlayıb.**

Beləliklə, Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı getdikcə artır. Bu, Prezident İlham Əliyevin qətiyyətinin, yeritdiyi müstəqil siyasətin, eləcə də ölkəmizin dünyada etibarlı tərəfdaş imici qazanmasının nəticəsidir.

İndiyədək Azərbaycandan qaz alan ölkələrin sayı 12 idi. Bunlar Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır.

Gələn ildən Albaniya da Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan qaz idxalına başlamağa hazırlaşır. Bunu Albaniyanın infrastruktur və energetika nazirinin müavini Seno Klosi bildirib: "Albaniya ilk dəfə TAP boru kəməri ilə qaz alacaq. Qaz kəməri artıq Albaniya ərazisindən keçir və İtaliyaya gedir, lakin gələcəkdə şimala doğru bir qolun çəkilməsi layihəsi müzakirə oluna bilər. Hələlik o, baxılma mərhələsindədir".

TAP-ın 2026-cı ildən etibarən əlavə olaraq ildə 1,2 milyard kubmetr qaz qəbul edəcəyi planlaşdırılır. Bunun 1 milyard kubmetrini İtaliya, daha 200 milyon kubmetrini isə Albaniya alacaq.

Yeri gəlmişkən, ölkəmiz Albaniyanın qaz infrastrukturunun qurulmasına da dəstək verəcək. Seno Klosi bildirib ki, Albaniya dinamik inkişaf edən enerji sektoruna malik bir ölkə olsa da, qaz sahəsində geri qalır. Bu problemin həll olunmasına Azərbaycanla əməkdaşlıq kömək edəcək. Belə ki, Azərbaycanla, xüsusilə SOCAR şirkəti ilə qarşılıqlı əməkdaşlıq ölkəyə qaz infrastrukturunun inkişafını sürətləndirməyə və enerji potensialını genişləndirməyə imkan yaradacaq: "Biz hər iki ölkənin malik olduğu təcrübə və potensialın, həmçinin enerji sahəsində toplanmış biliklərin mübadiləsi yolu ilə əməkdaşlığımızı genişləndirməyə çalışırıq. Məhz buna görə də sizin şirkətinizin – SOCAR-ın iştirakı ilə biz indi, deyək ki, layihənin ilkin mərhələsini – bu layihəyə investisiya qoyuluşuna başlamaq üçün konkret addımlara keçməzdən əvvəl biznes-planın hazırlanmasını başa çatdırırıq".

Azərbaycandan qaz alan ölkələr sırasında Suriya da olacaq. Belə ki, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın bu ay ölkəmizə işgüzar səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüş zamanı bir sıra sahələr, xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edilmişdir. Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirilmişdir. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanmışdır və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olunmuşdur.

Bu faktın özü də Azərbaycanın enerji strategiyasının getdikcə inkişaf etdiyini göstərir. Ölkəmiz artıq yalnız ənənəvi tərəfdaşlarla deyil, həm də yeni regional bazarlarla əlaqələrini möhkəmləndirir.

Suriyaya qaz ixracı Türkiyə üzərindən ildə 1 milyard kubmetr həcmində planlaşdırılır. Onu da qeyd edək ki, Azərbaycan qazının Yaxın Şərqə ixracı ilə bağlı mühüm texniki və logistika məsələləri də sürətlə həll olunur. Belə ki, Türkiyə ilə Suriyanı birləşdirən qaz kəməri artıq bərpa edilib və bu xətt yaxın vaxtlarda kommersiya qaz nəqlinə hazır olacaq. Daha önəmli bir məqam da var: Suriyanı İordaniya ilə birləşdirən, lakin müharibə illərində dağıdılmış digər qaz kəmərinin də yenidən qurulması perspektivləri dəyərləndirilir.

Bu layihənin reallaşması Azərbaycan qazının Suriyadan keçməklə İordaniyaya, hətta Misirə qədər nəqlinə geniş yol açacaq. Suriyanın bu prosesdə yalnız istehlakçı yox, həm də tranzit ölkə qismində iştirakı mühüm önəm daşıyır. Bu, həm regional əməkdaşlıq formatlarının genişlənməsinə, həm də Azərbaycan qazının ərəb dünyasına çıxışına real zəmin yaradır. Beləliklə, Azərbaycan Avropa ilə yanaşı, həm də Yaxın Şərq ölkələri üçün etibarlı enerji tərəfdaşı olacaq.

Ukrayna isə Azərbaycan qazını artıq almağa başlayıb. Bununla bağlı məlumatı "Naftogaz" Şirkətlər Qrupu yayıb. Şirkətdən bildirilib ki, ilk dəfə olaraq Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçirilir.

"Naftogaz" İdarə Heyətinin sədri Sergey Koretski sosial media hesabında yazıb: "Bu, miqyasına görə kiçik, lakin strateji əhəmiyyətli addımdır və uzunmüddətli əməkdaşlığa yol açır". O qeyd edib ki, Azərbaycandan qaz almaq ölkənin təchizatını şaxələndirəcək və enerji təhlükəsizliyini gücləndirəcək.

Azərbaycan qazının Ukraynaya tədarükü geosiyasi və iqtisadi baxımdan nə qədər əhəmiyyətlidir? Ekspertlərin fikrincə, ümumiyyətlə, Azərbaycan qazının ixrac coğrafiyasının genişlənməsinin siyasi-iqtisadi əhəmiyyəti böyükdür. Artıq Azərbaycan qazının Avropaya çatdırılması və oradan da geriyə dönərək Ukraynaya daxil olması prosesi də başlayıb. Doğrudur, bu, əvvəlcədən müəyyən edilmiş həcmdə qazın bölgüsü çərçivəsində baş verir. Lakin hər bir halda Azərbaycanın qaz ixrac coğrafiyasının genişlənməsi və xüsusilə Ukrayna istiqamətində yeni bir mərhələnin başlanması mühüm əhəmiyyət daşıyır.

Bu layihə həm də siyasi baxımdan ciddi bir yenilikdir. Çünki uzun illər ərzində qaz əsasən Rusiya ərazisindən Ukraynaya nəql olunurdu. İndi isə bu tarixi model dəyişir və Azərbaycanın qazı yeni bir marşrut üzrə Ukraynaya çatdırılır. Bu, Avropanın qaz təchizatı xəritəsində baş verən fundamental dəyişikliyin göstəricisidir.

Qeyd edək ki, hazırda Azərbaycan qazının müəyyən ixrac həcmi və qazı daşıyan kəmərlərin ötürücülük gücü mövcuddur. Əgər gələcəkdə nəql infrastrukturu genişləndirilərsə və ixracın həcmi artırılarsa, iqtisadi səmərə daha böyük olar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*